# Tirana Zirvəsində Azərbaycan reallığı




**Azərbaycan Prezidenti İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin Tiranada keçirilən VI Zirvə toplantısında iştirakı ölkəmizin Avropa siyasi məkanındakı yerini daha da gücləndirən, həm də Qərb dairələrinin rəsmi Bakıya münasibətində baş verən dəyişiklikləri göstərən mühüm diplomatik hadisədir.**

Bu iştirak təkcə beynəlxalq tədbirdə deyil, eyni zamanda Azərbaycanın artan geosiyasi çəkisinin və Qərblə münasibətlərdə yeni fazaya keçidin rəmzidir. Bu platforma Avropa İttifaqının sərhədlərindən kənar ölkələrlə siyasi dialoqu genişləndirmək məqsədi daşıyır və burada iştirak təsadüfi seçilmir. Prezident İlham Əliyevin artıq bir neçə dəfə bu Zirvəyə xüsusi dəvətlə qatılması Avropanın onu etibarlı tərəfdaş kimi qəbul etdiyinin göstəricisidir. Tirana Zirvəsindəki iştirakın ən diqqətçəkən tərəfi isə Azərbaycan tərəfindən təqdim olunan aydın və konkret gündəmdir. Enerji, nəqliyyat-kommunikasiya və humanitar məsələlər üzrə Azərbaycanın irəli sürdüyü təşəbbüslər bu gün təkcə regional deyil, Avropa üçün də strateji əhəmiyyət kəsb edir.

**(davamı 3-cü səhifədə)**



# Tirana Zirvəsində Azərbaycan reallığı

(əvvəli 1-ci səhifədə)

2022-ci ildə Praqada keçirilən Zirvə toplantısında Azərbaycanın ərazi bütövlüyünün Fransa və Ermənistan tərəfindən qəbul olunması diplomatik planda ciddi dönüş nöqtəsi oldu. Həmin görüş Azərbaycanın postmünaqişə dövründə beynəlxalq hüquqa əsaslanan yanaşmasının legitimliyini təsdiqlədi. Tiranadakı Zirvə toplantısı isə bu xəttin davamı və Avropanın Bakıya baxış bucağında reallığın sübutudur - Azərbaycan Cənubi Qafqazın lideridir və onunla hesablaşmadan bölgədə hər hansı sabitlik və əməkdaşlıq modelinin qurulması mümkün deyil.

Son illər Avropa Parlamenti və bəzi Qərb dairələri Azərbaycana qarşı sistemli şəkildə qərəzli yanaşma nümayiş etdirib. Bu qərəzli yanaşmalar "demokratiya" və "insan hüquqları" kimi bəhanələrlə təqdim olunsa da, əslində siyasi maraqların və ikili standartların təzahürü idi. Tiranaya dəvət və Prezidentə göstərilən yüksək diqqət isə bu kampaniyaların nəticə vermədiyini və real geosiyasi ehtiyaclar fonunda Qərbin Azərbaycanın mövqeyini dinləməyə məcbur olduğunu göstərdi. Azərbaycanın geosiyasi dəyəri təkcə enerji təhlükəsizliyi ilə məhdudlaşmır. Bakı həm də Avropa ilə Asiyanı birləşdirən nəqliyyat dəhlizlərinin qovşağında yerləşir, Cənub Qaz Dəhlizi kimi strateji layihələrə liderlik edir. Eyni zamanda rəsmi Bakı postmünaqişə dövründə sülh və əməkdaşlıq gündəliyini təşviq edir ki, bu da Avropa İttifaqı üçün vacibdir. Rəsmi Brüssel artıq Azərbaycanı tənqid hədəfi yox, sabitləşdirici aktor kimi görür və bu münasibət Tiranadakı sammitdə açıq şəkildə nümayiş olundu.

Azərbaycan Prezidentinin Tiranadakı Zirvə toplantısında iştirakı Avropanın siyasi gündəmində rəsmi Bakının rolunun artdığını, qərəzli yanaşmaların isə real




maraqlar qarşısında gücsüz qaldığını göstərdi. Tiranada formalaşan siyasi mənzərə açıq şəkildə göstərdi ki, Azərbaycan təkcə Cənubi Qafqaz deyil, ümumilikdə Avropa siyasi dairələri üçün də zəruri siyasi aktora çevrilib. Fransadan tutmuş Ermənistana qədər müxtəlif mövqelərdə dayanan liderlərin Azərbaycan Prezidenti ilə görüşmək istəyi onu göstərir ki, rəsmi Bakı artıq bir sıra regional və beynəlxalq məsələlərin həllində vasitəçi statusunu qazanıb. Bu nüfuz şübhəsiz ki, ölkə başçısının çoxvektorlu, balanslı və milli maraqlara əsaslanan xarici siyasətinin, eləcə də diplomatik çevikliyinin nəticəsidir. Azərbaycanın beynəlxalq platformalarda, xüsusilə Qoşulmama Hərəkatına sədrlik dövründə, ədalət və bərabərlik çağırışları ilə çıxış etməsi, bu siyasi xəttin davamı kimi Azərbaycanın COP29-a ev sahibliyi etməsi həm də Avropa və dünya ictimaiyyətinin Bakıya ekoloji və iqlim məsələləri kontekstində də güvəndiyini göstərdi.

"Avropa Siyasi Birliyi" kimi bir platformada Azərbaycanın iştirakı və burada səsləndirilən fikirlərin böyük maraq doğurması rəsmi Bakının qitənin təhlükəsizlik və sabitlik strategiyalarında artıq ayrılmaz hissəyə çevrildiyini göstərir. Azərbaycan Avropa üçün yalnız enerji resursları təminatçısı deyil, həm də regional dialoqun, sülh təşəbbüslərinin və geosiyasi sabitliyin təminatçısıdır. Sammit çərçivəsində Avropa İttifaqının regionda sabitliyi və rifahı gücləndirmək istəyi və bu fonda Azərbaycanla əməkdaşlığa xüsusi önəm verməsi ölkəmizin regional lider imicini bir daha təsdiqlədi.

Zirvə görüşünün əsas nəticələrindən biri odur ki, Azərbaycanla Aİ arasında münasibətlərin "geriyə istiqamət aldığı" ilə bağlı iddialar Tiranada siyasi reallıqlar qarşısında tamamilə puç oldu. Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen, Aİ Şurasının Prezidenti Antonio Koşta və Aİ-nin yeni rəhbər şəxsləri tərəfindən Prezident İlham Əliyevlə aparılan danışıqlar, Aİ-nin Bakı ilə qarşılıqlı maraqlara əsaslanan yeni münasibət mərhələsinə keçmək niyyətini göstərdi. Bu, həm də Avropa siyasi elitasının əvvəlki illərdə buraxdığı ciddi diplomatik səhvləri təftiş etməyə başladığının göstəricisidir.

ABŞ nümunəsində olduğu kimi, Aİ-nin də əvvəlki rəhbərliyi Azərbaycanla münasibətlərin soyuqlaşmasında bilavasitə məsuliyyət daşıyır. Qondarma qətnamələr, birtərəfli yanaşmalar və Ermənistanın mənafeyinə uyğun siyasi ritorika Aİ-nin neytrallığına kölgə salmışdı. Ancaq Kaya Kallasın Aİ-nin xarici siyasət rəhbəri kimi Azərbaycana ilk səfəri və Avropa liderlərinin Tiranada Prezident Əliyevlə görüşlərə can atması bu yeni yanaşmanın praktik sübutudur. Bu dəyişiklik, əslində Avropanın geosiyasi realizmə qayıdışı kimi qiymətləndirilə bilər.

Albaniyanın Tirana şəhərində keçirilən VI "Avropa Siyasi Birliyi" sammiti Azərbaycanla Aİ arasında münasibətlərin yeni mərhələyə qədəm qoyduğu, əvvəlki soyuqluğun yerini praqmatik dialoqa verdiyi, eyni zamanda ölkəmizin beynəlxalq statusunun daha da yüksəldiyi bir platforma kimi tarixə düşdü. Bütün bu proseslər Prezident İlham Əliyevin apardığı ardıcıl, qətiyyətli və çoxşaxəli xarici siyasətin uğurlu nəticəsi olaraq dəyərləndirilir. Tirana sammiti siyasi koordinasiya tədbiri olmaqla yanaşı, həm də Avropa ilə Azərbaycan arasında yaranan yeni dövrün rəsmi başlanğıcı kimi qiymətləndirilir.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**